2024

AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

# Bülleten SENTYABR

## Azərbaycanda sığorta sektorunun inkişafına həsr olunmuş tədbir keçirilib

Azərbaycan Mərkəzi Bankı və ASA-nın birgə əməkdaşlığı çərçivəsində yerli sığorta sektorunun inkişafı məqsədilə tədbir keçirilib.

Beynəlxalq mütəxəssislərin də iştirak etdiyi tədbir "Sığortada İnstitusional Mükəmməllik: Perspektivlər, Çağırışlar və İmkanlar" mövzusuna həsr olunub.

PwC, KPMG, SEDDK və AMBEST kimi xarici təşkilatların iştirak etdiyi tədbirdə "Solvency II", "IFRS 17", sığorta sektorunda inkişafın davamlılığı, risklərin idarə edilməsi, sığortada informasiya təhlükəsizliyi, katastrofik risklərin tənzimlənməsi və s. kimi aktual mövzular başlıca müzakirə istiqamətləri olub.

Qeyd edək ki, bu tədbir Azərbaycan Respublikasının Mərkəzi Bankının yeni inkişaf strategiyasına uyğun olaraq, yerli sığorta şirkətlərinin beynəlxalq trend və tendensiyalara əsaslanaraq dayanıqlı inkişafının təmin olunması məqsədilə təşkil olunub.












## Sentyabr ayında daha 2 bölgəmizdə "Sığorta Festivalı" keçirilib







Azərbaycan Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun birgə əməkdaşlığı ilə keçirilən "Sığorta Festivalı" sentyabr ayında öz işini davam etdirib.

Sentyabr ayı ərzində Naxçıvanda ilk dəfə baş tutan festival yüksək izləyici marağı ilə qarşılanıb. "Sığorta Festivalı"na ötən il olduğu kimi Gəncə şəhərində yekun vurulub. Gəncə şəhərində baş tutan bağlanış mərasimi rəsmilərin və şəhər sakinlərinin iştirakı ilə yüksək aktivliklə keçirilib.

## ASA Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin iclasında iştirak edib

Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) İcraçı direktoru Elmar Mirsalayev Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) Rəyasət Heyətinin növbəti iclasında iştirak edib. İclasda ASK-nın fəaliyyətindən irəli gələn məsələlər müzakirə edilib. Qeyd edək ki, ASA-nın İcraçı direktoru E.Mirsalayev ASK-nın Rəyasət Heyətinin üzvüdür.



## ASA-nın İcraçı direktoru Türkiyə səfəri ilə bağlı mediaya açıqlama verib




ASA-nın İcraçı direktoru Elmar Mirsalayev yerli sığorta bazarı iştirakçılarının Türkiyəyə oktyabr səfəri ilə bağlı "Report" İnformasiya Agentliyinə açıqlama verdi:

"ASA olaraq artıq 4 ildir ki, qardaş ölkə Türkiyənin sığorta sektoru ilə, bilavasitə Türkiyə Sığorta Birliyi ilə sıx əməkdaşlıq edirik. Bu əməkdaşlıq çərçivəsində təşkil olunan səfərlər Türkiyənin sığorta təcrübəsinin yaxından öyrənilməsinə, habelə geniş spektrli beynəlxalq əlaqələrin formalaşdırılmasına təkan verir."

## ASA Amsterdamda keçirilən beynəlxalq konfransda iştirak edib



ASA-nın rəhbərliyindən ibarət nümayəndə heyəti və yerli sığorta şirkətləri Amsterdam şəhərində keçirilən "XVI Qlobal Sağlamlıq Sığortası Konfransı"nda iştirak edib. Konfransda bu il Azərbaycanla yanaşı 50-yə yaxın ölkənin sığortaçıları təmsil olunurlar.

Konfrans çərçivəsində ən qabaqcıl tibbi sığorta yenilikləri, gələcək nəsillərə uyğunlaşma strategiyaları və texnoloji inkişafın sığorta sektoruna təsirləri aktual müzakirə mövzuları olub.

## “Azərbaycan Sənaye Sığorta” ASC-nin rəhbərliyinə yeni təyinat



“Azərbaycan Sənaye Sığorta” ASC-nin İdarə Heyətinin tərkibində dəyişiklik olub. Belə ki, İlkin Mirzəyev “Azərbaycan Sənaye Sığorta” ASC-nin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunub. O, sığorta şirkətlərinin İdarə Heyətində təmsil olunmaqla yanaşı son 5 ildə İcbari Sığorta Bürosunun maliyyə şöbəsinin rəisi vəzifəsini icra etmişdir.

## ASA "Rəqəmsal çevikliyin sürətləndirilməsi" tədbirində iştirak edib

Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayev və Assosiasiyanın bir qrup üzvü "Rəqəmsal çevikliyin sürətləndirilməsi" mövzusuna həsr olunmuş tədbirdə iştirak ediblər. Tədbirdə maliyyə sistemində rəqəmsal transformasiyanın yaratdığı üstünlüklər və bu yeniliklərdən istifadə imkanları geniş müzakirə olunub.



## Sığortaçılar üçün "Səhm bazarının inkişafı" mövzusunda seminar keçirilib



Azərbaycan Sığortaçılar Assosiasiyası (ASA) ilə Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası (AFBİA) arasında mövcud olan qarşılıqlı əməkdaşlıq əlaqələri çərçivəsində sığortaçılar üçün seminar təşkil olunub. "Səhm bazarının inkişafı" mövzusuna həsr olunan seminar AFBİA-nın təşkilatçılığı ilə baş tutub.

## “İnsan resurslarının idarə edilməsi funksiyaları” mövzusunda təlim keçirilib

ASA Tədris Mərkəzi sosial məsuliyyət çərçivəsində “İnsan resurslarının idarə edilməsi funksiyaları” mövzusunda ödənişsiz onlayn təlim təşkil edib. Mərkəzin direktoru Pərviz Quliyev tərəfindən həyata keçirilən kursda müxtəlif təşkilatlardan iki qrup üzrə 48 iştirakçı iştirak edib. Uğurla yekunlaşan təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.




## “Maliyyə maarifləndirməsi” layihəsi çərçivəsində növbəti təlim baş tutub



Azərbaycan Sığortaçılar Assosiasiyası, ASA Tədris Mərkəzi və Miqrasiya Könüllüsü İctimai Birliyinin birgə əməkdaşlığı ilə “Maliyyə maarifləndirməsi” layihəsi çərçivəsində sığorta maarifləndirməsi təlimi həyata keçirilib. Təlimdə 35-ə yaxın dinləyici iştirak edib. Maarifləndirmə təlimi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

## “Telefonda xidmətvermə və problemli müştərilərlə iş” mövzusunda seminar keçirilib

ASA Tədris Mərkəzi tərəfindən növbəti təlim “PAŞA Sığorta” ASC-nin “Telesales Bootcamp layihəsi” iştirakçıları üçün “Telefonda xidmətvermə və problemli müştərilərlə iş” mövzusunda seminar keçirilib. Adı çəkilən təlim təcrübəli təlimçi Lətafət Rəhimlinin təqdimatında həyata keçirilib. Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.



## Dünyanın ən böyük təkrarsığorta şirkətlərinin gəlirləri açıqlandı




AM Best-in hesabatına görə, “Swiss Re” və “Munich Re” 50 ən böyük təkrarsığorta şirkəti arasında ilk iki yeri bölüşür. Ümumi təkrarsığorta gəlirləri baxımından, 2023-cü ildə “Swiss Re”-nin 40,5 milyard dollar “Munich Re”-nin 32,9 milyard dollar, “Hannover Re”-nin 27 milyard dollar, “Lloyd's”-un 22,1 milyard dollar, “SCOR”-un isə 17,5 milyard dollar xalis gəliri olub.

## ABŞ Rusiyanın təkrarsığorta şirkətinə qarşı sanksiya tətbiq edib

Avropa İttifaqı və Böyük Britaniyadan sonra ABŞ də “Rusiya Milli Təkrarsığorta Şirkəti”nə  qarşı sanksiya tətbiq edib. Lakin rusiyalı sığorta ekspertlərinin fikrincə bu, Rusiya bazarına ciddi təsir etməyəcək. Ekspertlərin fikrincə adı çəkilən şirkət xaricdəki risklərini təkrarsığortaladığı üçün və xarici aktivləri olmadığına görə, bu sanksiya şirkətin fəaliyyətinə neqativ təsir etməyəcək. Lakin bu, şirkəti, risklərin təkrarsığortası üzrə mövcud məhdudiyyətlərə yenidən baxmağa sövq edəcək.




## Fitch sorğu keçirdi: Respondentlərin 50%-i təkrarsığortada qiymətlərin qalxacağını düşünür




Fitch Ratings 81 sığorta və təkrarsığorta bazarı iştirakçısı arasında 2025-ci ilin yanvar ayında təkrarsığortanın yenilənməsi ilə bağlı gözləntilərini ifadə edən təkrarsığorta bazarı sorğusu keçirib. Respondentlərin 50%-dən çoxu qlobal təkrarsığortaçıların qiymətləri qaldıracağını, 30%-i 5%-dən çox, 26%-i isə 5%-dən az qiymət artımını, 22%-i isə qiymətlərin dəyişməz olaraq qalacağını ehtimal edib.

"A-Qroup Sığorta Şirkəti" ASC



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***44 767.53 AZN***



"Azərbaycan Sənaye Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***17 174 AZN***

"AzSığorta" ASC

*Sığorta növü: DƏİS*
*Sığorta hadisəsi: Fırtına nəticəsində zərərdəymə*
*Sığorta məbləği:* ***11 988, 75 AZN***






"Xalq Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***9 342 AZN***

"İpək Yolu Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***3 672 AZN***





"Qala Həyat" Sığorta Şirkəti ASC

*Sığorta növü: İpoteka krediti üzrə borcalanın həyat sığortası*
*Sığorta hadisəsi: Ölüm hadisəsi*
*Sığorta məbləği:* ***112 705 AZN***



"Qala Sığorta" ASC

*Sığorta növü: : Nəqliyyat vasitələrinin tam sığortası*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***17 083.60 AZN***



"Meqa Həyat Sığorta" ASC

*Sığorta növü: Kredit götürən şəxslərin həyat sığortası*
*Sığorta hadisəsi: Ölüm halı*
*Sığorta məbləği:* ***2 730,44 AZN***

"Meqa Sığorta" ASC



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***13 174 AZN***

## “Qala Sığorta” növbəti sosial təşəbbüsü valideyn himayəsindən məhrum olmuş uşaqlara həsr etdi






“ASAN Könüllüləri” Təşkilatı ilə birgə təşkil olunmuş tədbirin açılış mərasimi Bakı şəhərində baş tutub.

Bilik gününün yaxınlaşması məqsədilə təşkil olunan “Bilik Karvanı” adlı layihə çərçivəsində respublikanın bir neçə bölgəsində uşaq evlərindən 700-ə yaxın uşağa məktəb çantası və ləvazimatları, kitablar və digər hədiyyələr təqdim olunub.

## ”Qala Sığorta” ASC Şərur və Culfa rayonlarında ofislərini istifadəyə verdi

20 sentyabr 2024 cü ildə baş tutan tədbirdə şirkətin Direktorlar Şurası və İdarə Heyətinin üzvləri ilə yanaşı, Azərbaycan Respublikasının Mərkəzi Bankının Naxçıvan İdarəsinin, o cümlədən Şərur və Culfa rayonlarının İcra Hakimiyyətlərinin rəsmiləri iştirak ediblər.





## "Meqa" Sığorta Qrupunun dəstəyi ilə Beynəlxalq Pərakəndə Zirvəsi keçirilib




"Meqa Sığorta" ASC və "Meqa Həyat Sığorta" ASC-nin sponsorluğu ilə 21 sentyabr 2024-cü il tarixində Biznes Mərkəzi Klubunun təşkilatçılığı ilə Bakıda ilk dəfə olaraq Beynəlxalq Pərakəndə Zirvəsi keçirilib.

Yerli və xarici ölkələrdən tanınmış iş adamlarının iştirak etdiyi bu tədbirin məqsədi pərakəndə sektorda fəaliyyət göstərən sahibkarlar arasında əlaqələrin yaradılması, qarşılıqlı əməkdaşlığın formalaşdırılması olub.

Tədbirdə bədii hissə ilə yanaşı müxtəlif interaktiv müsabiqələr keçirilib və qaliblər dəyərli hədiyyələr ilə mükafatlandırılıb.

# “İpək Yolu Sığorta” – 29

"İpək Yolu Sığorta" Açıq Səhmdar Cəmiyyəti 1995-ci il 6 sentyabr tarixdə dövlət qeydiyyatına alınmışdır. Fəaliyyətə başladığı ilk gündən indiki dövrədək şirkət respublikanın aparıcı sığorta şirkətləri arasında özünəməxsus yer tutmaqdadır. Şirkət hazırda 24 sığorta növü ilə məşğul olmaq üçün müvafiq lisenziyalara malikdir. Müştərilərinə geniş miqyaslı, o cümlədən, bütün növ aviasiya sığortası, əmlak, avtomobil, yük, məsuliyyət, tikinti, fərdi qəza, elektron cihaz, montaj və sair növlər üzrə peşəkar sığorta xidməti göstərir.

“İpək Yolu Sığorta” ASC Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun aktiv üzlərindəndir.

İPƏK YOLU SIĞORTA



# “Meqa Sığorta” – 26

"Meqa Sığorta" Açıq Səhmdar Cəmiyyəti 1998-ci il 28 sentyabr tarixdə dövlət qeydiyyatına alınmışdır. Şirkət 32 könüllü və 3 icbari sığorta növü üzrə xidmət göstərir. Şirkətin Bakı ofisləri ilə yanaşı, Azərbaycanın müxtəlif bölgələrində filial və nümayəndəliklər daxil olmaqla 20-dən çox satış nöqtəsi. mövcuddur.

Fəaliyyət şəffaflığını, yüksək maliyyə sabitliyini, sürətli inkişafını təmin etməyə yönəlmiş strategiyanı həyata keçirmək məqsədi ilə hər il Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (MHBS) uyğun olaraq dünyanın aparıcı auditor şirkətləri tərəfindən audit olunur və həmçinin SGS şirkəti tərəfindən təsdiqlənmiş ISO 9001 beynəlxalq standartına uyğun olaraq Keyfiyyət İdarəetmə Sistemini tətbiq edir.

“Meqa Sığorta” ASC Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun aktiv üzlərindəndir.



MEQA SIĞORTA

# "Meqa Həyat Sığorta" – 5

"Meqa Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyəti 17 sentyabr 2019-cu il tarixdə dövlət qeydiyyatına alınıb. 19.02.2021-ci il tarixdə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən şirkətə həyat sığortası üzrə sığorta fəaliyyəti göstərməyə icazə verən SF-0003 nömrəli lisenziya, 12.03.2021-ci il tarixdə isə "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta" növü üzrə fəaliyyət göstərmək icazəsi verilmişdir. Şirkət İpoteka və Kredit Zəmanət Fondunun ipoteka kreditləşməsi üzrə müvəkkil sığortaçılar siyahısına daxil edilib.

Nizamnamə kapitalı 11 000 000 AZN təşkil edir və şirkətin təsisçisi 100% payla "Meqa Sığorta" ASC-dir.

Şirkət İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta, Fiziki şəxslərə təqdim edilən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından və əmək qabiliyyətinin itirilməsi hallarından sığorta, Həyatın yaşam sığortası, Müddətli həyat sığortası, Sağalmaz xəstəliklərdən sığorta məhsullarını təklif edir.

"Meqa Həyat Sığorta" ASC Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun aktiv üzlərindəndir.



ASA
AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

Index: AZ1000, Baku, Azerbaijan
Ünvan: Mikayıl Useynov 63
Tel\fax: (+994 12) 492 80 45
E-mail:office@asa.az

www.asa.az